# Cahana sığmayan dahi



Dahi şair və mütəfəkkir İmadəddin Nəsiminin 650 illik yubileyinin keçirilməsi haqqında dövlət başçısının sərəncamının icrasını təmin etmək məqsədilə Mədəniyyət Nazirliyinin əmri ilə hazırlanan tədbirlər planına uyğun olaraq şəhər-rayon mədəniyyət müəssisələrində ədəbi-bədii gecələr, dəyirmi masalar, kitab sərgiləri, bədii qiraət və rəsm müsabiqələri keçirilir.





"Nəsimi ili" çərçivəsində nazirliyin Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin tabeliyində fəaliyyət göstərən mədəniyyət və təhsil ocaqlarında, mədəniyyət evi və mərkəzlərində müxtəlif səpkili tədbirlər davam edir.





***

Paytaxtdakı 3 nömrəli Uşaq incəsənət məktəbi tərəfindən "Atəşgah məbədi" Dövlət Tarix-Memarlıq Qoruğunda Nəsiminin anadan olmasının 650 illik yubileyi münasibətilə "Mən bəşəriyyətə gərəyəm" adlı tədbir keçirilib. Tədbirdə Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin rəisi Cəlil Məlikov, Suraxanı Rayon İcra Hakimiyyətinin əməkdaşı Nazim Fətullayev, "Nəsimi" filmində (1973) çəkilmiş Xalq artisti Əbdül Mahmudov, Əməkdar artist Xalidə Quliyeva, uşaq musiqi və incəsənət məktəblərinin direktorları, digər qonaqlar iştirak edib.

Məktəbin xoreoqrafiya sinfi şagirdlərinin ifasında kompozisiya və "Nəsimi" filmindən epizodlar nümayiş olunub. Sonra məktəbin müəllimi Rəşidə İsgəndərova Nəsiminin bir neçə qəzəlini səsləndirib. Məktəbin "Şəms" xalq çalğı alətləri ansamblının müşayiəti ilə xanəndə sinfi şagirdlərinin şairin sözlərinə bəstələnən mahnıları ifa ediblər. Xanəndə sinfinin şagirdləri "Nəsimi" filmindən dərvişlər səhnəsini canlandırmaları tədbirə xüsusi rəng qatıb.

Çıxış edənlər mütəfəkkir şairin yaradıcılığından söz açıblar. "Nəsimi" filminin çəkilişi ilə bağlı xatirələr, yaddaqalan səhnələr haqqında düşüncələr maraqla qarşılanıb. Tədbirin sonunda iştirakçılar məktəbin rəsm sinfi şagirdlərinin Nəsimiyə həsr olunmuş əl işlərindən ibarət sərgi ilə tanış olublar.

***

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin şəbəkəsinə daxil olan Qaradağ rayon Heydər Əliyev Mərkəzində Nəsiminin 650 illik yubileyinə həsr olunmuş rayon məktəblərinin şagirdləri arasında şeir müsabiqəsi keçirilib. Rayon İcra Hakimiyyəti başçısının müavini Təranə İsmayılova giriş nitqində Nəsimi sözünün qüdrətindən danışıb. Bildirib ki, Nəsiminin ədəbi irsi qədim köklərə və çoxəsrlik ənənələrə malik Azərbaycan ədəbiyyatı tarixində xüsusi mərhələ təşkil edir. Ana dilində şairin humanist ideyalarla, yeni məzmun, deyim tərzi və bədii lövhələrlə daha da zənginləşməsində şairin misilsiz xidmətləri olub. Nəsimi yaradıcılığı bir sıra xalqların da bədii-ictimai fikrinin inkişafına təsir göstərib.

Diqqətə çatdırılıb ki, Nəsimi irsinin Azərbaycan xalqının mənəviyyat xəzinəsində layiqli yerini tutması ötən əsrin 70-ci illərində öz geniş fəaliyyəti sayəsində tarixi-mədəni dəyərlərimizə münasibətdə əsaslı dönüş yaratmış ümummilli lider Heydər Əliyevin adı ilə bilavasitə bağlıdır. Ulu öndərin təşəbbüsü ilə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən ilk dəfə Nəsiminin 600 illik yubileyi UNESCO-nun tədbirlər siyahısına daxil edilib və 1973-cü ildə beynəlxalq miqyasda qeyd olunub.

Sonra müsabiqəyə start verilib və şagirdlər Nəsiminin şeirlərini qiraət ediblər. Şair-publisist, pedaqoq, 166 №-li tam orta məktəbin direktoru Şəmsi Qoca, rayon İcra Hakimiyyəti İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Munis Bayramov şagirdlər tərəfindən söylənilən şeirlər haqqında öz fikirlərini söyləyib, məsləhətlərini veriblər. Daha sonra qaliblər elan olunub.

***

Yasamal rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin (MKS) Mirzə Şəfi Vazeh adına Mərkəzi Kitabxanası Nəsiminin 650 illik yubileyi və "Nəsimi ili" ilə əlaqədar Azərbaycan Milli Konservatoriyası nəzdindəki İncəsənət Gimnaziyasında tədbir təşkil edib.

Mərkəzi kitabxananın əməkdaşı İradə Hüseynova tədbiri açaraq Nəsiminin Azərbaycan poeziyasının inkişafına verdiyi töhfələrdən danışıb. Şagirdlər şairin həyatından bəhs edən səhnəcik nümayiş etdirib, qəzəllərini söyləyiblər.

Sonda şairin kitablarından ibarət sərgi və "Nəsimi ili" stendinə baxış keçirilib, "Nəsimi" filmindən fraqmentlər nümayiş olunub.





Yasamal rayon MKS-nin Mərkəzi Kitabxanasında Nəsiminin 650 illik yubileyi və "Nəsimi ili" ilə əlaqədar stend-sərgi də hazırlanıb. Fotosərgidə Nəsiminin Bakıdakı heykəlinin ümummilli lider Heydər Əliyevin iştirakı ilə açılışına dair fotolar, 2018-ci il noyabrın 19-da Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda böyük şairin büstünün açılışı ilə bağlı şəkillər, eləcə də şairin əlyazmalarının fotosurətləri və s. nümunələr yer alıb.



***

Xətai rayon MKS-nin Mərkəzi Kitabxanası rayon 257 saylı tam orta məktəblə birgə "Nəsimi 650" adlı tədbir keçirib. Çıxışlarda böyük şairin yubileyinin qeyd edilməsi və 2019-cu ilin ölkəmizdə "Nəsimi ili" elan edilməsi haqqında dövlət başçısının imzaladığı sərəncamların əhəmiyyətini vurğulanıb. Şairin həyatı, milli ədəbiyyatımızda onun yaradıcılığının, fəlsəfi baxışlarının yeri və rolu barədə tədbir iştirakçılarına geniş məlumat verilib.



Tədbirdə şagirdlər ədəbi-bədii kompozisiyalar təqdim edib, Nəsiminin qəzəllərindən nümunələr səsləndiriblər.

***

Sabunçu rayon MKS-nin 2 saylı filialı Nəsiminin 650 illiyi münasibətilə 170 saylı orta məktəbin şagirdləri ilə birlikdə "Əbədiyyət üfüqündə doğmuş eşq günəşi" başlıqlı sərgi və tədbir keçirib. Filialın əməkdaşı S.Əliyeva çıxışında bildirib ki, Nəsiminin adı həqiqət naminə, fikir azadlığı yolunda qəhrəmanlığın rəmzi kimi əbədiləşib və yaddaşlarda yaşamaqdadır. Şair mərdanə ölümü ilə düşmənlərini belə təəccübləndirib, insanların qəlbində əsrlərlə yaşamasına zəmin yaradıb. Nəsimi yenilməzlik simvoluna çevrilib. Söz ustadının ölməz irsi Azərbaycan xalqının milli-mənəvi varlığının və böyük ideallarının, duyğu və düşüncəsinin zəngin və tükənməz xəzinəsidir.

Sonra şagirdlər şairin qəzəllərini söyləyib, kompozisiya təqdim ediblər.

***

Baş idarənin 24 nömrəli 11 illik Musiqi məktəbində "Nəsimi xanəndələrimizin ifasında" adlı tədbir keçirilib. Tədbirdə Bakı Musiqi Akademiyası Humanitar fənlər kafedrasının müdiri, professor Tərlan Quliyev, Xalq artisti Canəli Əkbərov, Əməkdar incəsənət xadimi Aqil Məlikov və başqa qonaqlar iştirak ediblər. Tədbirdə Nəsimi poeziyasından, onun fəlsəfəsindən, poeziyasının incəliklərindən danışılıb, tanınmış xanəndələr şairin sözləri üstündə muğam və mahnılar səsləndiriblər.

***

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin tabeliyindəki Ş.Ələkbərova adına Mədəniyyət evi Azərbaycan bədii və fəlsəfi fikrində dərin iz qoymuş mütəfəkkir şair İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr edilən "Məndə sığar iki cahan" adlı bədii qiraət müsabiqəsi keçirib. Müsabiqə Xətai rayonu 58 saylı tam orta məktəbdə təşkil edilib. Mədəniyyət evinin direktoru C.Süleymanov iştirakçılara müsabiqə haqqında məlumat verib.

Sonra məktəblilər Nəsiminin qəzəllərini səsləndiriblər. Müsabiqədə 1, 2 və 3-cü yeri tutanlara fəxri fərman, fəal iştirak edənlərə isə tərifnamələr təqdim olunub.

